

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (23.138)

28 noyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Şimali Qafqaz respublikaları, o cümlədən Çeçenistan Respublikası ilə əməkdaşlığın iki ölkə arasında əlaqələrin möhkəmlənməsi işinə töhfə verdiyini qeyd edib. Prezident İlham Əliyev Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin və Çeçenistan Respublikası ilə əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda böyük inkişafa nail olunduğunu, dini icmalar, o cümlədən müsəlmanlar arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində böyük işlərin görüldüyünü qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şərəfinə nahar verilib.

## Naxçıvanbank səmərəli kreditləşmədə fəal iştirak edir

*Muxtar respublikamızın bütün sahələrində olduğu kimi, bank-kredit fəaliyyəti istiqamətində də uğurlar əldə edilir. Real sektorun dəstəklənməsi üçün ayrı-ayrı sahələrə verilən kreditlər müxtəlif istehsal və xidmət sahələrinin yaradılması, əhali məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Ölkəmizin nüfuzlu banklarından biri olan “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti yarandığı ilk gündən bu missiyanı uğurla yerinə yetirir.*



Fəaliyyət göstərdiyi on il müddətində “Naxçıvanbank” ASC-nin uğurlarının arxasında hər bir müştərisinə “biznes tərəfdaşı” kimi münasibət bəslənməsi dayanır. Müasir biznesin, xüsusilə bank işinin əsas prinsiplərindən olan etibarlı tərəfdaşlıq, peşəkar işçi heyəti və yeni texnologiyaların mənimsənilməsi sayəsində bank ötən müddət ərzində nüfuzunu xeyli artırmış və bir sıra yerli və beynəlxalq təşkilatlarla əlaqələr yaratmışdır. Əmanətlərin Sığortalanması Fondu, Beynəlxalq Banklararası Ödəniş Sistemi – SWIFT, MASTERCARD, VİSA International Card, FATCA, Bloomberg kimi beynəlxalq təşkilatların üzvü olan Naxçıvanbank muxtar respublikamızda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində fəal iştirak edir.

Hazırda “Naxçıvanbank” ASC Naxçıvan və Bakı şəhərlərində, Şərur, Culfa və Ordubad rayonlarının hər birində bir filial olmaqla, ümumilikdə, 5 filial şəbəkəsinə və Naxçıvan şəhərində fəaliyyət göstərən 1 mübadilə şöbəsinə malikdir. Bu filiallarda müştəriləri maraqlandıran hər növ bank əməliyyatları, kreditlərin verilməsi, ödəniş kartları, pul köçürmələri, kommunal xidmət haqlarının ödənilməsi, əməkhaqqı ödənişləri, hesablaşma-xəzinə xidmətləri və bir sıra başqa əməliyyatlar aparmaq mümkündür.

Bank deyəndə insanların təsəvvüründə ilk olaraq sərfəli şərtlərlə təklif olunan kreditlər yaranır. Bu mənada, “Naxçıvanbank” ASC təkcə muxtar respublikamızda deyil, ölkəmizin bank sektorunda seçilən kredit təkliflərinə malikdir. Belə ki, Naxçıvanbankın müştəriləri Azərbaycan Respublikası üzrə ən aşağı faiz dərəcələri ilə bir sıra kredit məhsulları əldə edə bilirlər. Bankın verdiyi istehlak kreditləri 24 ay müddətinə illik 17 faiz, kart kreditləri 12 ay müddətinə 18 faiz, avtomobil kreditləri 36 ay müddətinə illik 17 və 18 faiz, bankın daxili vəsaiti hesabına verilən ipoteka kreditləri 10 il müddətinə 10 faiz, “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına verilən ipoteka kreditləri 25 və 30 il müddətinə 4 və 8 faiz dərəcəsi ilə təklif olunur. Bütün bunlarla yanaşı, muxtar respublika iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının inkişafına da böyük dəstəyi olan Naxçıvanbank tərəfindən əkinçilik sahəsi üzrə 12 ay müddətinə 13 faiz, heyvandarlıq, quşçuluq, arıçılıq və digər sahələr üzrə 24 ay müddətinə 15 faiz dərəcəsilə kreditlər təklif olunmaqdadır. Ümumilikdə isə biznes kreditləri 15 faiz dərəcəsi ilə 24 ay müddətinə təklif edilməkdədir. “Naxçıvanbank” ASC müvəkkil bank kimi öz müştərilərinə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2, 5 və 8 il müddətinə illik 6 faiz dərəcəsilə güzəştli sahibkarlıq kreditləri də verməkdədir.

Ötən dövrdə “Naxçıvanbank” ASC-nin uğurlu fəaliyyətinin mühüm göstəricisi kimi onun kredit portfelinin həcmini qeyd etmək olar. Belə ki, 1 sentyabr 2018-ci il tarixədək bankın kredit portfeli 68 milyon 391 min manat təşkil etməkdədir. Bu portfelin 7 milyon 447 min manatı ipoteka kreditlərinin, 12 milyon 637 min manatı istehlak kreditlərinin, 20 milyon 110 min manatı biznes kreditlərinin, 23 milyon 474 min manatı sənaye, 4 milyon 723 min manatı kənd təsərrüfatı sahəsinə yönəldilən kreditlərin payına düşür. Təkcə cari ildə “Naxçıvanbank” ASC tərəfindən 24 milyon 344 min manatdan çox kredit verilmişdir. Göründüyü kimi, əhaliyə, habelə kiçik və orta sahibkarlıqla məşğul olan şəxslərə universal bank və maliyyə xidmətləri göstərməklə, habelə onların yaxın maliyyə məsləhətçisi olmaqla, “Naxçıvanbank” ASC kiçik və orta sahibkarların ən böyük maliyyə dəstəkçisidir. Belə ki, bankın kredit portfelinə nəzər saldıqda ümumi kredit məbləğinin 48 milyon manatının sahibkarlıq və biznes kreditləri üçün ayrıldığını görmək olar.

Bank fəaliyyəti iqtisadiyyatın çevik və həssas sektorlarından biridir. Bu mənada, bankçılıq daim yenilənən və mütərəqqi texnologiyalara açıq olan bir sahədir. Bu prinsipləri əsas tutan “Naxçıvanbank” ASC tərəfindən cari ildə muxtar respublika ərazisində bütün növ kommunal, mobil operator, internet ödənişlərini, həmçinin smart-kartlar vasitəsilə istifadə olunan elektrik və qaz kommunal xərclərinin ödənişlərini və digər ödənişləri həyata keçirməyə imkan yaradan 40 ödəniş terminalı quraşdırılmışdır. Bununla yanaşı, 38 bankomat və 802 POS-terminal quraşdırılaraq istifadəyə verilmişdir. Həmçinin müştərilərin rahatlığı naminə bankın daim yenilənən və aktiv olan internet saytından vətəndaşlar artıq onlayn şəkildə kredit və plastik kart sifarişi etmək imkanı qazanmışdır.

Yüksək inkişaf dinamikasına görə ölkəmizin regionları arasında öncül yerləri tutan Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın struktur tərkibi, əhalinin artan istehlak qabiliyyəti və malik olduğu yerli xammal və əmək ehtiyatları ilə liderliyini qorumaqdadır. Bu istiqamətdə aparılan məqsədyönlü işlərin arxasında isə məhz dövlətin yeritdiyi uğurlu pul-kredit siyasəti dayanır. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti də bu uğurlu yolda gələcəyə doğru əmin addımlarla irəliləməkdədir.

✍ Əli CABBAROV

## Yeni inzibati bina inşa olunur

*Son illər muxtar respublikada baytarlıq xidmətinin nümunəvi təşkili üçün ardıcıl tədbirlər həyata keçirilib, xidmətin maddi-texniki bazası gücləndirilib.*



Kənd təsərrüfatının inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında bu sahənin oynadığı mühüm rol nəzərə alınaraq Dövlət Baytarlıq Xidmətinin tabeliyindəki qurumların da iş şəraiti yaxşılaşdırılır, süni mayalandırma tədbirlərinin aparılması üçün lazımi avadanlıqlar verilir. Babək Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın inşa olunması da həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Cari ilin noyabr ayından etibarən tikintisinə başlanılan inzibati bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Hazırda burada təməlatma işləri aparılır. Qeyd edək ki, müasir layihə əsasında inşa olunan binanın birinci mərtəbəsində dərman və boyaq maddələrinin saxlanılması və qəbul otaqları, eləcə də arxiv yerləşəcək. İkinci mərtəbədə isə virusoloq-həkim, terapevt-həkim, epizootik-həkim, süni mayalanma otağı, laborant-sanitar otağı və laboratoriyalar yerləşəcək.

Məlumat üçün deyək ki, bu il yaradılmasının 40 illiyini qeyd edən Babək rayonunda 13 dövlət orqanının yerləşdiyi dördmərtəbəli inzibati bina yenidən qurulub, rayon Elektrik Şəbəkəsi üçün yeni bina inşa olunub.

Muxtar RZAZADƏ

## Sənaye məhsullarının istehsal həcmi artır

Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə tarazlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Buna görə də milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb. Təsadüfi deyil ki, təxminən, son 20 il ərzində muxtar respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilib, mövcud müəssisələrin fəaliyyətlərinin bərpası və yenidən qurulması təmin olunub. Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, qənnadı, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılıb. Sənaye sahələrinə böyük investisiyaların qoyulduğu Naxçıvan Sement Zavodu, minik avtomobillərinin istehsalını həyata keçirən Naxçıvan Avtomobil Zavodu və digər müəssisələr bu sahədə məhsul istehsalının həcminin artımına müsbət təsir göstərib. Nəticədə, ümumi daxili məhsul istehsalında sənaye məhsullarının həcmi durmadan artmaqdadır.

Sənaye məhsulları həcminin artım dinamikasına nəzər yetirsək, görərik ki, 2016-cı ildə muxtar respublikada istehsal olunan məhsulların həcmi 942 milyon manatdan çox olub. Bu istehsal həcmi 1995-ci illə müqayisədə 103, 2000-ci illə müqayisədə isə 69 dəfə çox deməkdir. Ötən il isə 967 milyon 60 min manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricini 1,4 faiz üstələyir. Bu dövrdə sənaye məhsulu istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşüb. Sənayenin dövlət sektorunda 49 milyon 878 min 900, qeyri-dövlət sektorunda isə 917 milyon 181 min 100 manatlıq məhsul istehsal olunub. İstehsal olunan sənaye məhsulunun 94,8 faizi özəl sektorun payına düşüb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, muxtar respublikada 2018-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 172 milyon 378 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, burada da ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 827 milyon 648 min 800 manat dəyərində məhsul istehsal edilib və ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının həcmində 1,3 faiz artım qeydə alınıb.

Onu da qeyd edək ki, bu gün muxtar respublika iqtisadiyyatının şaxələndirilməsində sənaye sektoru əhəmiyyətli rol oynayır və müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması bu sahənin sürətli inkişafına təkan verib.

✍ Səbuhi HƏSƏNOV

Müasirləşən kəndlərimiz

# Ordubadın incisi – Gənzə

## Bu yaşayış məntəqəsində milli-mənəvi dəyərlərə ehkam kimi baxılır

***Daha çox uşaqlıq xatirələrimdə yaşayır bu kənd. Ötən əsrin 70-ci illərinin əvvəllərində burada yaşayan qohumlarımgilə gedərdim. Ordubad şəhərindən bir neçə kilometr aralıda qərar tutmuş kiçik yaşayış məntəqəsinin füsunkar təbiəti, mehriban insanları mənə buranı öz kəndimiz qədər sevdirmişdi... Sonrakı illərdə də Gənzəyə yolum düşüb. Gülərüz, səmimi sakinlərinin yenə də bir ailə kimi yaşadıqlarını görmüşəm. Gənzə Ordubad şəhərindən 12 kilometr şimal-şərqdə yerləşir. Ərazisindən keçən Gənzəçay Arazın sol qoludur. Zəngəzur silsiləsinin cənub-qərb yamaclarından başlanır, Ordubad şəhəri yaxınlığında Araz çayına tökülür. Kəndin yaxınlığındakı mineral su bulağı Gənzəçayın məcrasındadır. Bulağın suyu orta dərəcədə minerallaşmış, hidrokarbonatlı-sulfatlı, natriumlu, maqneziumlu, kalsiumludur.***

***Rusiya Federasiyasındakı "Jeleznovodsk" suyu kimi müalicə məqsədilə istifadə etmək olar. Gənzə bulağının suyu tərkibinə və minerallaşmasına görə Ordubad rayonunun digər bulaqlarının suyundan əsaslı surətdə fərqlənir.***

### Evlərinin qapıları bağlanmayan kənd

Gənzə kəndinə getməyə hazırlaşarkən bu ifadəni xatırlatdıqda həmkarlarımdan biri çox təəccübləndi. Bildirdim ki, süfrələri ruzi-bərəkətli olan, bir-birlərinin xeyir-şərində bir ailə kimi iştirak edən, başqasına əl tutmağı ən böyük xeyirxahlıq kimi dəyərləndirən gənzəlilər tanıdığım digər insanlardan bir çox özəllikləri ilə seçilirlər.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Qürbət Əliyevdən Gənzə barədə bir qədər geniş məlumat verməsini xahiş etdim. Gülümsünərək bildirdi ki, Gənzənin ən ağsaqqal sakini Hacı Abbas kişi buradakı adət-ənənələr haqqında daha ətraflı məlumat verər (Bu da gənzəlilərə məxsus adətlərdən biridir ki, bu kəndə gələn qonaqları ilk olaraq ağsaqqallarla görüşdürürlər, onlardan xeyir-dua alırlar).

Üz tuturuq el ağsaqqalının evinə. Bir qədər sonra öyrənəcəyəm ki, bu evdə iki oğul, iki qız böyüdülüb. Hamısı ali təhsil alıb. Ailəlidirlər. Oğlanlar Bakıda, qızların biri Gənzədə, o biri isə rayonun Dırnıs kəndində yaşayır. Hacı Abbas, yoldaşı Arifə xanım, oğlanları Məhərrəm və Səyavuş Həcc, qızları Sinarə və Təranə isə Məşhəd ziyarətlərində olublar.

Hacı Abbas kişinin oğlanları ailələri ilə birlikdə bu gün Bakıdan kəndə qonaq gəlirlər, yoldadırlar. Bir qədər sonra həyətdə səs-küy qalxır. Gələnlər Bakıda yaşayan gənzəli "qonaqlardır". Qardaşlar içəri keçir, bizə "xoş gəldin" edirlər. Stola çay gəlir, yanında Ordubad limonu, müxtəlif mürəbbələr. Nə vaxt söhbətə qızışdığımızı bilmirik. Gəlişimin səbəbini öyrənən Məhərrəm deyir ki, Gənzəyə məxsus olan özəlliklərin sorağı ilə bu kəndə respublikamızın digər yerlərindən də üz tuturlar. Ağsaqqal sözü bu kənd üçün yazılmamış qanun və ehkamdır. Onların bir sözü iki ola bilməz.

Səyavuş söhbətə qoşulur:

– Gənzəlilər üçün xarakterik olan ən başlıca xüsusiyyətlərdən biri onların gördükləri hər hansı xeyirxah işin kim tərəfindən həyata keçirildiyini deməmələridir. Bu kənddə dini dəyərlərə ehtiram yüksək səviyyədədir. Müxtəlif dini ocaqları ziyarət edən 20 yaşdan yuxarı gənzəlilər 70 faizdən çoxdur. Kənddə adətdir. Bir nəfər ziyarətə gedirsə, onu bütün kənd yola salır. Qarşılanma mərasimi də eləcə. Ziyarətdən qayıtdıqdan sonra verilən ehsanın kim tərəfindən hazırlandığını çoxları bilmir. Gənzəli xeyriyyəçilər təkcə öz kəndimizdə xeyriyyəçilik etmirlər. Rayonun digər yaşayış məntəqələrində də onlar xeyirxah iş sahibləri kimi tanınıblar.

Gənzədə iki məscid binası var. Hər ikisi təmir olunub. Kəndin mərkəzində olan böyük məscidin həyətində mərasim evi inşa edilib. Bura qaz və telefon xətləri çəkilib. Kəndi gəzərkən evlərin qapılarının bağlanmadığını bir daha öz gözlərimlə gördüm. Məscidlərin və mərasim evinin qapıları taybatay açıq idi. Bildirdilər ki, qapılar axşamüstü örtülür.

### Örnək olan adətlər bu gün də yaşadılır

Qədim tarixi olan bu kənddə örnək ola biləsi çoxlu adətlər var. Heç vaxt kənd toylarına dəvətnamələr yazılmayıb. Bu gün də belədir. Bircə dəfə kənd meydanında elan olunur ki, filan vaxt filankəsin evində şadlıq mərasimi var. Naharda qadınlar iştirak edir, axşam isə kişilər. Toyların ən yaxşı xüsusiyyətlərindən biri burada pul yığılmamasıdır (onu da qeyd edək ki, yas mərasimlərində də bu adət yoxdur). Toy mərasimləri, adətən, kənddə tikilən "Həsənoğlu" şadlıq sarayında keçirilir. Milli toy adətlərimizə dəqiq əməl olunur. Heç kim mövcud ənənələrdən kənara çıxa bilməz. Gənzəlilər imkanlı adamlar olmalarına baxmayaraq, israfçılığı xoşlamırlar. Stolların üstünə düzülən nemətlərin qədərində olmasına xüsusi fikir verirlər. Kənd toylarında milliliyin qorunub saxlanılmasını ifa olunan musiqi nömrələrindən də görmək olar. Cavanlar oynamağa, adətən, yaşlı adamlar toydan getdikdən sonra çıxırlar.





Toydan söhbət düşmüşkən onu da deyim ki, burada hələ boşanan ailə qeydə alınmayıb. Boşanmaq üçün ən başlıca səbəb sayılan sonsuzluq belə, bu hadisəyə yol verməyib. Fətulla adında bir gənzəli həyat yoldaşı ilə dünyadan övlad görmədən köçüb. Hər cümə axşamı onların evlərinin işığını yandırmağı gənzəlilər özlərinə borc bilirlər. Bundan xeyirxah iş ola bilərmi?

Bu yaşayış məntəqəsinin sakinləri Ordubadın bir çox kəndlərində məscidlər tikdirib və ya təmir etdiriblər. Xeyriyyəçiliklə məşğul olan gənzəlilər böyrəklərindən əziyyət çəkən iki həmyerlisinə yeni böyrək alınmasında yardımçı olublar. Həmin insanlar bu gün şad-xürrəm ömür sürürlər. Desəm ki, bu kənddə küsülü yoxdur, yəqin ki, ya təəccübləncək, ya da inanmayacaqsınız. Öz işinizdir. Həqiqətdə belədir.

Adətən, Novruz bayramında yaxın qohum və qonşuları görməyə gedirik. Gənzədə isə qohum və qonşuluğunda yaşayanlar deyil, öncə cavanlar və ortayaşlı nəsil kəndin bütün ağsaqqallarını görməyə gedirlər. Bu yaşayış məntəqəsi həm də uzunömürlülər kəndidir. Yaşı 100-dən çox olan Məleykə Həsənova, ömürlərinin onuncu onilliklərini yaşayan Əkbər Əkbərov, Qurban Bağırov və başqaları Gənzənin bu günü üçün minnətdarlıqlarını bildirirlər. Qurban kişi deyir ki, kəndlərimizin indiki büsatını görəndə sanki cavanlaşıram.

Gənzə kəndi isə ən müasir yaşayış məntəqəsi ilə yarışa girə bilər. Onlar belə kənddə yaşamaqlarından qürur hissi keçirirlər.

### Gənzədə hər il 6-7 fərdi mənzil inşa edilir, kənddə 150-dən çox avtomobil var

Gənzə kəndinin əhalisi həyatyanı təsərrüfat sahələrində öz tələbatları üçün lazım olan əkinçilik məhsullarının istehsalı, meyvəçilik, qismən də heyvandarlıqla məşğul olur.

Bu yaşayış məntəqəsinə də muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən xeyli pay düşüb. 2007-ci ildə Gənzədə həkim ambulatoriyası istifadəyə verilib. Kənd adamlarının rabitə xidmətindən istifadəsini yaxşılaşdırmaq məqsədilə burada 284 yerlik elektron ATS qurulub. Müxtəlif mobil operatorların baza stansiyaları yaradılıb. Kənddə 3 artezian quyusu vurulub. Əhalinin istifadə etdiyi digər su mənbələrinin – Gülməz və Səfiqulu kəhrizlərinin dişgöynədən suyu həm də müalicəvi əhəmiyyətə malikdir. Kəndin mərkəzində xeyriyyəçilərin tikdirdiyi göldən 120 həyətə su xətti çəkilib. Əhali 2 mağazanın xidmətindən istifadə edir. Hər il 6-7 ev inşa olunur. Kənddə 150-dən artıq şəxsi minik avtomobili var.

### Quruculuq tədbirlərindən bu kənd də bəhrələnib

Dövlətimizin bu yaşayış məntəqəsinə böyük qayğısının ifadəsi olan daha bir neçə yeni obyekt 2011-ci il noyabr ayının 22-də istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Gənzədəki yeni sosial obyektlərin açılışında deyib: ***"...Çətin, mürəkkəb günlər artıq arxada qalıb. Azərbaycan bu gün müstəqil dövlət kimi günü-gündən inkişaf edir, möhkəmlənir, dünya birliyində öz layiqli yerini tutur. Bu uğurların təməlində isə ümummilli lider Heydər Əliyevin siyasi xətti dayanır. Ulu öndərimizin yolunu uğurla davam etdirən hörmətli Prezidentimizin səyləri ilə Azərbaycanın bütün regionları inkişaf edir, tərəqqiyə qovuşur. İnsan amilinə qayğı, diqqət ən yüksək səviyyədədir. Bu qayğı özünü Gənzə kəndinin timsalında da aydın göstərir".***

Kompleks quruculuq tədbirləri çərçivəsində Ordubad şəhərindən Anabad kəndinədək uzunluğu 5,5 kilometr olan yolda əsaslı təmir işləri aparılıb, bu kənddən Gənzəyədək 1,5 kilometr yola asfalt örtük salınıb. Həmin gün Gənzədə hazırda 174 şagirdin təhsil aldığı məktəb üçün 306 şagird yerlik yeni bina istifadəyə verilib. Məktəbə də baş çəkdik. Təhsil ocağının direktoru Nazim Nəcəfov deyir ki, məktəbdə kimya, biologiya, fizika və hərbi kabinələr, 15 sinif, kompüter, müəllimlər otaqları, 2 elektron lövhəli sinif, kitabxana, bufet və idman zalı vardır. Məktəbin zəngin kitab fonduna malik kitabxanası müəllim və şagirdlərin ixtiyarındadır. Burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilmiş kitablardan ibarət guşə hazırlanıb, adıçəkilən sərəncama əsasən tədbirlər, kitab müzakirələri keçirilir. İnformatika dərslərinin tədrisinin səviyyəsini yüksəltmək üçün məktəb 20 kompüterlə təchiz olunub. Kompüterlərin internetə çıxışları təmin edilməklə 19-u siniflərdə qurulub, şahmatın tədrisində də internetdən istifadəyə şərait yaradılıb.

Məktəb güclü təhsil ənənələrinə malikdir. Qeyd edək ki, orta təhsillərini bu məktəbdə alan onlarla məzun bu gün yüksək elmi titullar daşıyır. Elmlər doktorları Müzəffər və Valeh Məmmədov qardaşları, mərhum Eldar Abdinov, yazıçı Rasim Gənzəli və başqalarının uğurları ilə həm pedaqoji kollektiv, həm də kənd camaatı haqlı olaraq fəxr edirlər. Bu gün onların yollarını davam etdirmək istəyənlər çoxdur. Məsələn, ötən dərs ilində bu məktəbi bitirmiş 9 məzunun 6-sı təhsilini davam etdirmək üçün gücünü sınayıb. Onlardan 4-ü ali, 2-si orta ixtisas məktəblərinə qəbul olublar. Abituriyentlərin 1-i 685 bal toplayaraq ona göstərilən etimadı yüksək səviyyədə doğruldub. Kənd məktəbinin pedaqoji kollektivi bu il daha yüksək nəticə qazanacağına əmindir. Burada görüşdüyümüz Əfsanə Qulamova Naxçıvan şəhərində doğulub boya-başa çatıb. Ali təhsil aldıqdan sonra təyinatla bu məktəbə gəlib. Deyir ki, Gənzə haqqında çox eşitmişdim. Adının etimologiyası ilə bağlı hələ universitetdə oxuyarkən məlumatım var idi. Bilirdim ki, mənbələrdə bu ad "Kənizə" və "Kənzək", XIX əsrdən sonra isə "Gənzə" şəklində yazılıb. Bu adın "zək" hissəsi qədim saq türk tayfa adı ilə bağlıdır – Kənzək – Kənsaq. Daha inandırıcı fikirsə ondan ibarətdir ki, "Gənzə" adı ilə "Gəncə" sözü eyni kökə malikdir. Azərbaycanın İsmayıllı, Xanlar, Salyan, Sabirabad rayonlarındakı Gəncə, Gənzə kimi yer-yurd və kənd adları da eyni kökdəndir. Gəncə toponimi hunların ən qədim – "kun"un morfoloji birləşməsi "kunçuk"dan törəmiş "gəncək" türk tayfasının adından götürülüb. Yəqin ki, qədim hunların tayfa qollarından biri də Gənzə kəndinin əsasını qoyub və tayfa adlarını yaşadıblar. Elə o vaxtdan bu kənd məndə çox maraqlı bir yaşayış məntəqəsi təsiri yaratmışdı. Ali təhsilimi başa vurduqdan sonra tərəddüd etmədən Gənzə məktəbini seçdim. 2007-ci ildən bu məktəbdə çalışıram. Məktəbin pedaqoji kollektivi kimi, kənd də mehriban bir ailəni xatırladır.

2011-ci ildə Gənzədə istifadəyə verilən obyektlərdən biri də kənd mərkəzi olub. Obyektin açılışında Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin "Ordubad Azərbaycanın incisidir" fikrini xatırladaraq deyib: ***"Ordubadın da incisi Gənzə kəndidir. Bu kənd milli-mənəvi dəyərlərimizə, qədim adət-ənənələrimizə sədaqəti, haqqa, ədalətə sadiqliyi ilə həmişə fərqlənmişdir. Ötən əsrin 90-cı illərindəki çətin, qarışıq vaxtlarda bu kəndin sakinləri düz yol seçdilər, ulu öndərə, onun siyasi xəttinə yüksək sədaqət nümayiş etdirdilər. Zaman sübut etdi ki, bu, düzgün seçim idi".***

* * *

Özünəməxsus adət-ənənələri olan bir kənddən yüksək təəssüratlarla ayrılıram. Düşünürəm ki, kənd sakinlərinə göstərilən belə qayğı insan amilinə olan ehtiramın ifadəsidir. Gənzəlilər bu qayğıya layiqdirlər. Onlar özlərində həmişə dövlətçiliyə sədaqəti, xalqa xidməti ən yüksək keyfiyyət kimi formalaşdırıblar, milli-mənəvi dəyərlərimizə qiymətli sərvət kimi baxıblar. Bu gün də elədir, sabah da belə olacağı şəksizdir.

**Muxtar MƏMMƏDOV**

# Culfada "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib

Bu gün muxtar respublikamızda daxili bazara öz töhfələrini verən ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması ilə bağlı görülən tədbirlər həmin təsərrüfatların üzvləri və muxtar respublika sakinləri tərəfindən yüksək dəyərləndirilir. Belə tədbirlərdən biri də "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsidir. Naxçıvan şəhərində iki dəfə təşkil edilən bu festivallara muxtar respublikamızın bütün bölgələrindən məhsullar çıxarılıb.

Noyabrın 10-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən növbəti "Ailə təsərrüfatı məhsulları" festivalında Ali Məclisin Sədri digər mühüm tapşırıqlarla yanaşı, muxtar respublikanın bütün rayonlarında da ailə təsərrüfatı məhsulları festivallarının keçirilməsi və nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin yayılması barədə də tapşırıqlar verib.

Bu tapşırıqların icrası ilə əlaqədar ilk festival Culfa şəhərində keçirilib. Tədbirdə daxili bazarın yerli, keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasında ailə təsərrüfatlarının rolu qeyd edilib.



Festivalda rayonun kəndlərindən 30-a yaxın ailə təsərrüfatı tərəfindən 128 adda 1320 qablaşdırılmış kənd təsərrüfatı məhsulları nümayiş olunub. Mövsümə uyğun olaraq müxtəlif növ mürəbbə və şirniyyatlar, meyvə araqları, pendir, cəviz, eləcə də turşular, təbii meyvə şirələri, yumurta, dərman bitkiləri və digər məhsullar iştirakçılara təqdim olunub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan dünya mətbuatında*

# Türk dünyasına açılan qapı – Naxçıvan

*Yeraltı və yerüstü sərvətləri, zəngin faydalı qazıntıları, xəstələrə şəfa verən mineral bulaqları ilə məşhur olan, Gəmiqaya abidələri, bədii tərtibatlı boyalı qablar, tunc məmulatlar və tarixi abidələr diyarı Naxçıvan Muxtar Respublikası bu gün həm də dünyanın gözəl turizm məkanlarından biridir.*

Muxtar respublikanın coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqları və təbiəti, zəngin və çeşidli heyvanat aləmi, zəngin tarixi-mədəni irsi, özünəməxsus zəngin mətbəxi, yüksək qonaqpərvərlik ənənələri, hər yerində, hətta ən ucqar nöqtələrində belə, muxtar respublika rəhbərinin yaratdığı müasir şərait və infrastruktur Naxçıvanda turizmin geniş inkişafına imkan verir.



Naxçıvan Muxtar Respublikası əlverişli siyasi-coğrafi mövqeyə malikdir. Belə ki, qardaş Türkiyə Respublikası və İran İslam Respublikası kimi turizm potensialı böyük olan ölkələrlə sərhəd olması, Böyük İpək Yolunun üzərində yerləşməsi Naxçıvanda turizmin inkişafına şərait yaradan əsas amillərdəndir. Burada turizmin tarixi-mədəni, ekoloji və kənd yaşıl, ziyarət, müalicə və digər sahələri inkişaf etdirilir. Naxçıvan ərazisinin əsas hissəsi Zəngəzur və Dərələyəz dağ silsilələrindən və Arazboyu uzanan ovalıqlardan ibarətdir. Ərazinin 75 faizi dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşir. Bu diyar füsunkar təbiəti, rəngarəng bitki örtüyü və heyvanlar aləmi ilə seçilir. İlk baxışda muxtar respublika ərazisi nə qədər quru və çılpaq görünsə də, daxilən bir o qədər zəngin və rəngarəngdir.

Burada Azərbaycanın nadir fauna və florası mövcuddur. Dünyada olan 11 iqlim qurşağından doqquzuna Naxçıvan Muxtar Respublikasında rast gəlinir. Muxtar respublika ərazisində 3 minə yaxın bitki, 373 heyvan növü var. Azərbaycan Respublikasında qeydə alınmış 366 quş növünün yarıdan çoxu – 226-sı Naxçıvan ərazisində məskunlaşıb. Bəzi bitki və heyvan növləri Naxçıvan üçün endemikdir. Naxçıvan kəndlərinin çox hissəsi dağlıq ərazilərdə, çay kənarlarında yerləşir. Bu baxımdan da muxtar respublika ərazisində ekoloji və onun bir qolu olan kənd yaşıl, dağçılıq turizm növlərini inkişaf etdirmək olar.

Geniş ərazi, münbit torpaq, saf su, təmiz hava, bol Günəş – bunlar zəngin təbiət sərvətləridir. Naxçıvan Muxtar Respublikasının təbii bitki ehtiyatlarının böyük hissəsi dərman bitkiləridir: 700-ə yaxın növ. Azərbaycanın mineral su ehtiyatının 60 faizi muxtar respublikanın payına düşür. Burada 250-yə yaxın mineral su mənbəyi qeydə alınıb. Bu mineral suların bir hissəsi müalicə məqsədilə istifadə edilir ("Badamlı", "Sirab", "Darıdağ", "Böyrək" suyu). Eyni vaxtda 300 xəstəni qəbul etmək imkanına malik Duzdağ Fizioterapiya Mərkəzi və Culfa rayonundakı Darıdağ Arsenli Su Müalicəxanası bir çox ölkələrdən gələn yüzlərlə turistin üz tutduğu əsas müalicə mərkəzlərindəndirlər. Bu baxımdan müalicə turizminin inkişafı üçün potensial böyükdür.

Hər hansı bir ölkənin turizm potensialından danışdıqda oranın tarixi-mədəni irsi ön plana çəkilir. Naxçıvan tarixinin min illərlə ölçülməsi, burada dünya memarlığının incisi hesab oluna biləcək tarixi-memarlıq abidələrinin olması, zəngin mədəni irsi bu diyarı xarici turistlər üçün əhəmiyyətli edir. Möminə xatın, Yusif Küseyir oğlu türbələri, Qarabağlar Türbə Kompleksi, Xanəgah Abidə Kompleksi, adı Nuh Peyğəmbərin gəmisi ilə bağlanan Gəmiqaya daşüstü yazıları, əfsanəvi Haçadağ, abidələrlə zəngin olan qoruq-şəhər Ordubad, haqqında müqəddəs "Qurani-Kərim"də bəhs edilən Əshabi-Kəhf ziyarətgahı, 5000 ildən çox yaşı olan Naxçıvan şəhəri, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, xalq sənətkarlarının günümüzə qədər qorunub saxlanılmış sənətkarlıq nümunələri və sair turistlər üçün cəlbedicidir. Buraya Naxçıvan diyarının zəngin folklorunu, musiqi və təsviri sənətini, ədəbiyyatını da əlavə etsək, tarixi-mədəni turizmin inkişaf etdirilməsi üçün necə böyük imkanların olduğunu təsəvvür edərik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən qeydə alınmış 1202 daşınmaz tarix-mədəniyyət abidəsinin 57-si dünya, 500-ə yaxını isə ölkə əhəmiyyətlidir.

Bu qədim diyarın Möminə xatın türbəsi, Xan sarayı, Zaviyə-mədrəsə binası, Naxçıvan "Came" məscidi, Nuh türbəsi, İmamzadə Kompleksi, Şərq hamamı, Şərur rayonunda "Parçı" İmamzadəsi, Qarabağlar Türbə Kompleksi, Ordubad şəhərində Qeysəriyyə, qədim hamam, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Xanəgah Abidə Kompleksi, "Əlincəqala", Gülüstan türbəsi kimi çoxsaylı tarixi abidələri bərpa olunub.

Tarixi-mədəni turizmin inkişafında turizm nümayiş obyektlərinin özünəməxsus yeri var. Bu baxımdan Naxçıvan Muxtar Respublikasını "muzeylər diyarı" da adlandırmaq olar. Muxtar respublikada 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir ki, onların 17-si 1995-ci ildən sonra yaradılıb.

1 təbiət qoruğu, 1 milli park, 2 təbiət yasaqlığı, 1 tarix-memarlıq qoruğu, 1 tarix-bədii qoruq, 1 ziyarətgah kompleksi, 2 tarix-mədəniyyət qoruğu, 3 teatr, 30 muzey, 2 filarmoniya, banklar, ticarət mərkəzləri, benzindoldurma məntəqələri və sair turizmin inkişafında mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada 21 mehmanxana var. "Təbriz" və "Duzdağ" mehmanxanaları 5 ulduz kateqoriyasına malikdir.

Muxtar respublika rəhbərinin apardığı sosial-iqtisadi siyasət sayəsində qədim diyarın hər yerində əlverişli infrastruktur yaradılıb. Ucqar dağ kəndlərinə, təbiətin əlçatmaz guşələrinə rahat yollar çəkilib. Kiçik və orta sahibkarlığın inkişafına xüsusi qayğı göstərilir. Bütün bunlar da turizm potensialından istifadəyə təkan verən mühüm amillərdir.

Naxçıvan Muxtar Respublikasında turistlərin komfortlu istirahəti üçün müasir mehmanxana, yolnəqliyyat, restoran şəbəkəsi mövcuddur. Həmçinin fasiləsiz elektrik enerjisi, sürətli internet, müasir tələblərə cavab verən telefon rabitəsi turizm infrastrukturunun vacib elementləridir. Muxtar respublika ərazisindəki birdəfəlik tutumu 1400 nəfərdən çox olan 20-dən artıq mehmanxanada turistlərin rahat gecələməsi, burada işgüzar görüşlərin keçirilməsi üçün müasir şərait yaradılıb. Hazırda Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turizm marşrutları fəaliyyət göstərir.

Muxtar respublikanın turizm potensialının təbliği istiqamətində ardıcıl iş aparılır. Bu qədim diyarın tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı onlarla adda reklam-informasiya materialları hazırlanıb, reklam çarxları və filmlər çəkilib.Turizmin inkişafı həm də bu sahədə peşəkar kadrların olmasından çox asılıdır. Muxtar respublikada bu sahənin ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Hazırda Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm ixtisası üzrə kadrlar hazırlanır.

**Zeynəb NAXÇIVANLI**
**"Zəfər" qəzeti,**
**Türkiyə**
**24 noyabr 2018-ci il**

# Forum çərçivəsində gələcək fəaliyyət istiqamətləri müzakirə olunub

Xəbər verdiyimiz kimi, noyabrın 26-da Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu keçirilib. Dünən forum iştirakçıları "Təbriz" otelinin iclas zalında Türk Şurası çərçivəsində planlar və birgə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi üçün müzakirələrdə iştirak ediblər. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan gənclərinin iştirak etdiyi tədbirdə ortaq tarix, mədəniyyət, dil, təhsil, idman, gənclik və digər sahələrdə birgə fəaliyyət haqqında danışılıb, bu sahələrdə gənclərin sosial şəbəkələrdəki aktivliyindən, şuraya üzv olan ölkələrdə gələcəkdə müxtəlif festivalların, intellektual və idman yarışlarının keçirilməsinin zəruriliyindən bəhs olunub.



Diqqətə çatdırılıb ki, Türk Şurası Gənc Liderlərinin Naxçıvanda keçirilən ilk forumu mühüm əhəmiyyəti ilə seçilir. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz minnətdarlığımızı bildiririk.

Tədbirdə bildirilib ki, Azərbaycan hər zaman türk dövlətləri arasında müxtəlif istiqamətlərdə, o cümlədən idman və gənclər sahəsində əlaqələrin möhkəmlənməsində öncül rol oynayıb. Bu gün Naxçıvanda keçirilən tədbir də bunun bariz nümunəsidir. Tədbirdə şuraya üzv olan ölkələrdən 50-yə yaxın gənc iştirak edir. Burada da əsas məqsəd gənclərin müxtəlif sahələr üzrə birgə fəaliyyət istiqamətlərini müzakirə etməkdir. Bir-birimizin tarixi, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmalıyıq. Artıq qırğızıstanlı gənc Mövlana Cəlaləddin Rumini, Nizamini, Koroğlunu tanımalı və ya əksinə, türkiyəli gənc "Manas" dastanı haqqında məlumatlı olmalıdır.

Keçirilən müzakirələrdə şuraya üzv olan ölkələrin lider gənclərinin arzu və təklifləri səsləndirilib. Müzakirələrin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

✍ **Səbuhi HƏSƏNOV**

# Naxçıvanla tanışlıq forum iştirakçılarında zəngin təəssürat yaradıb



*Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumunun iştirakçıları səfər çərçivəsində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Duzdağ Fizioterapiya Mərkəzində, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində, Naxçıvan Müəllimlər İnstitutunda olublar. Onlar qədim diyarla bağlı zəngin təəssüratlarını bizimlə bölüşüblər.*

***Uğur Yılmaz – Türk Şurası Universitetlər Birliyinin şura rəhbəri:*** – İlk olaraq bildirim ki, əvvəllər Naxçıvan barədə çox az bilgiyə malik idim. Lakin buraya gəlməzdən bir neçə gün öncə sosial şəbəkələr vasitəsilə məlumat toplamaq imkanım oldu. Sözün açığı, Naxçıvana üz tutduğumuzda belə yüksək şərait və qonaqpərvərliklə qarşılanacağımızı gözləmirdim. Qədim torpağa ayaq basdığımız andan səmimi ab-havanın, mehriban münasibətin şahidi oldum.



Qədim diyarın möhtəşəm tarixi-mədəni abidələri, hər addımda gözoxşayan səliqə-sahman, hökm sürən sabitlik, əmin-amanlıq hər bir qonaq üçün olduqca cəlbedici görünür. Fikrimcə, Naxçıvan belə yüksək məziyyətləri ilə xeyli sayda turisti qəbul edə bilər. Mən burada gördüyüm gözəllikləri gəzdiyim ölkələrdə hər kəslə paylaşacağam.

Onu da qeyd edim ki, forumun Naxçıvanda keçirilməsi bizə həm də qədim türk yurdunun gəncləri ilə geniş məlumat mübadiləsi aparmağa, onları daha yaxından tanımağa fürsət verdi.

***Dastan Almen – Türk Şurasının əməkdaşı:*** – Türk dünyası üçün strateji əhəmiyyətə malik olan Naxçıvan əhalisinin sayı və ərazisindən qat-qat daha böyük bir potensiala malikdir. Bu qədim diyar sürətlə inkişaf edib.

Biz Naxçıvan şəhərindəki bir sıra muzeyləri, tarixi abidələri ziyarət etdik, sakinlərlə ünsiyyət qura bildik. Mən burada şahidi oldum ki, Naxçıvanda formalaşan yüksək mədəniyyət Azərbaycan və Türk dünyasında çox mühüm yerə və rola malikdir. Xüsusilə vurğulamaq istərdim ki, Naxçıvanın qədim şəhər mədəniyyətinə malikliyi onun dünya miqyasında mühüm bir mədəniyyət mərkəzi olduğunun göstəricisidir. Bu həm də qədim türk mədəniyyətinin böyük keçmişindən xəbər verir. Naxçıvan şəhər mədəniyyətinin 5 minillik tarixi Türk dünyasının qürur tarixidir.



Biz Xan sarayında olarkən Naxçıvan xanlığının tarixi barədə dəyərli faktları öyrəndik. Bayraq Muzeyində isə Naxçıvanda yaradılmış dövlətlərin tarixi ilə bağlı ətraflı məlumat aldıq, onların bayraqları ilə tanış olduq. Bütün bunlar onu göstərir ki, tarixi keçmişi ərzində Naxçıvanda həm də güclü dövlətçilik ənənələri formalaşıb və bu ənənələr ümumtürk siyasi tarixində çox mühüm yerə malikdir. Xüsusilə Naxçıvanın tarixi şəxsiyyətləri Türk dünyasında şöhrət qazanmış böyük insanlardır. Mənim diqqətimi həm də daha çox Naxçıvan xanlığı dönəmində yaşamış və bu xanlığın qurucusu olan Kalbalı xan və onun övladları, Kəngərlilər nəslinin davamçıları cəlb etdi.

Naxçıvan şəhəri bir rəssamın tablo üzərində çəkdiyi möhtəşəm bir rəsm əsərinə bənzəyir. Şəhər planlı şəkildə qurulub, yol infrastrukturu çox gözəldir. Binalar, parklar öz yaraşığı ilə diqqətimizi çəkdi. Ən əsası isə şəhəriniz təmizdir. Burada hər şey yüksək səviyyədədir. Forumun Naxçıvanda keçirilməsi isə Türk dünyasının tarixinə daha bir əlamətdar hadisə kimi yazılacaqdır. Bu hadisənin Naxçıvanla bağlı olması isə onun əhəmiyyətini daha da artırır.

***Arailym Yessimbekova – Şərqi Qazaxıstan Gənclər Resurs Mərkəzinin sədri:*** – İlk dəfədir ki, Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında oluram. Belə təmiz, səliqəli və tarixi abidələrlə zəngin bir məkanda olmaq mənim üçün çox xoşdur. Türk Şurası Gənc Liderlərinin Forumunun ilk dəfə olaraq Naxçıvanda – qədim türk yurdunda təşkil olunmasını alqışlayıram.



Biz muxtar respublikanın muzeylərini ziyarət etdik, tarixi abidələri ilə tanış olduq. Həmin tarixi abidələr Naxçıvanın çox qədim bir sivilizasiyanın mərkəzi olduğunu göstərir. Abidələrin bərpası və onların qorunması isə onu sübut edir ki, bu diyarda tarixi keçmişə böyük diqqət və qayğı var.

***Tilebaldy Uraiimzhanov – Xoca Əhməd Yasəvi adına Qazax-Türk Universitetinin IV kurs tələbəsi:*** – Naxçıvana gəldiyimiz gündən şəhərinizin bir çox gəzməli-görməli yerlərində olduq. Qədimliyi və müasirliyi bir arada təcəssüm etdirən tarixi-mədəni abidələr, muzeylər diqqətimi cəlb etdi. Onu da deyim ki, şəhərinizin insanları çox mehriban və qonaqpərvərdirlər.



İlk dəfə Naxçıvan şəhərində təşkil edilən bu forum inanıram ki, gələcəkdə Türk dünyası gənclərini və qardaş xalqları daha sıx tellərlə bir-birinə bağlayacaq. Forum çərçivəsində təklif edilən proqramlar və layihələr birlikdə çox böyük işlər görməyimizə səbəb olacaq.

Əgər biz bir olsaq, tariximizi bilsək, çox şeylər qazanar və birlikdə daha güclü olarıq, lakin tariximizi, bir soydan olduğumuzu unutsaq, o zaman həmrəyliyimiz, birliyimiz də olmaz.

Forumda naxçıvanlı gənclərlə tanış olub, söhbət etdik. Gördüm ki, biz ortaq dil, mədəniyyət və tarixə malik insanlarıq, bizi fərqli edən heç nə yoxdur. Naxçıvanlı gənclər çox mehriban, gülərüz, savadlı, mədəni və çalışqandırlar.

**Xəbərlər şöbəsi**

***Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Azərbaycanda Belarus gəncləri günləri" çərçivəsində Belarus Respublikasından bir qrup gəncin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil olunub. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə qonaqların fikirlərini öyrəndik.***

## Belaruslu gənclərin Naxçıvan təəssüratları



***Nadejda Şebet – Baranovski Dövlət Universiteti, Belarus üçün 100 ideya müsabiqəsinin finalçısı:*** – İlk olaraq tədbirin təşkilatçılarına minnətdarlığımızı bildiririk. Keçirilən bu tədbir bir çox xüsusiyyətlərinə görə fərqlənir. Əvvəlcə onu qeyd edim ki, bu, mənim Azərbaycana, Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Səfər çərçivəsində biz muzeylərdə olduq. Xüsusilə Duzdağ Fizioterapiya Mərkəzi diqqətimi daha çox cəlb etdi. Belə bir yerin mövcudluğu həm də Naxçıvanın turizm imkanlarının nə qədər geniş olmasından xəbər verir. İlk dəfə qədim diyarımızda keçirilən Belarus günlərində naxçıvanlı gənclərə öz mədəniyyətimiz haqqında ətraflı məlumat verməyə çalışdıq. Onların əl işlərimizə maraq göstərməsi isə bizi sevindirdi. Nə vaxtsa yenidən Naxçıvana qayıdacağıma inanıram.



***Kristina Borbut – Belarusun Respublika Ekologiya və Ölkəşünaslıq Mərkəzinin Vətənpərvərlik şöbəsinin müdiri:*** – Tədbirin Naxçıvanda keçirilməsi çox gözəl bir haldır. Düşünürəm ki, bu, Azərbaycanla, xüsusilə Naxçıvanla Belarus arasında olan əlaqələri, münasibətləri genişləndirəcək, yeni layihələrin gerçəkləşdirilməsinə təkan verəcək. Çalışdığım işlə birbaşa bağlı olduğu üçün gənclərə vətənpərvərlik ruhunu aşılamaq, onlarla digər xalqların nümayəndələri arasında gözəl münasibətlər qurmaq əsas məqsədimdir. Naxçıvanda artıq gənclərlə xeyli söhbətlərimiz oldu. Xüsusilə gənclər üçün yaradılan hərtərəfli şərait mənim diqqətimi cəlb etdi.

Naxçıvan çox gözəl şəhərdir. İstər təmizliyi, istər yeni binaları, istərsə də sakitliyi ilə digər şəhərlərə nümunədir. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində görkəmli dövlət xadiminin fotoları və xalça üzərində işlənmiş rəsmi insanı heyran edir.



***Tatyana Rubanik – Belarus Təhsil Nazirliyinin baş məsləhətçisi:*** – "Azərbaycanda Belarus gəncləri günləri"nin keçirilməsi əlamətdar hadisədir. Bu, iki dövlət arasında münasibətlərin nə qədər inkişaf etdiyini göstərir. İstər təhsil, istər mədəniyyət, istərsə də idman sahəsində belə tədbirlərin təşkil olunması həm də iki ölkə gəncləri arasında münasibətlərin qurulmasına şərait yaradır. Gənclər bu məsələlərdə bir yerə toplaşaraq fikir mübadiləsi aparır, öz sahələri üzrə məsələləri müzakirə edirlər. Naxçıvanda da belə oldu.

Naxçıvan Muxtar Respublikası haqqında ətraflı məlumatım olduğuna görə bura gəlməmişdən öncə gənclərimizə qədim diyar haqqında bəhs etmişdim. Amma gəlib gördüklərim məni daha çox təəccübləndirdi. Vurğulamaq istərdim ki, "Təmiz şəhər" statusu verilərsə, ilk olaraq buna Naxçıvan layiq görülməlidir. Gənclərin bizə qarşı isti münasibəti, onların keçirilən tədbirlərdə fəallıq göstərmələri və sərgidə Belarus mədəniyyətinə olan maraqları bizi çox sevindirdi. Şəhər mərkəzindəki Heydər Əliyev Muzeyinə, o cümlədən Duzdağ Fizioterapiya Mərkəzinə gəzintimiz təşkil olundu. Deyə bilərəm ki, Duzdağa müalicəyə gələnlər üçün hər cür şərait yaradılıb. Belə yerlər Naxçıvanın iqtisadiyyatı və turizmi üçün geniş imkanlar açır. Muxtar respublikanız hər zaman mənim təsəvvürümdə təmiz diyar və gözəl məkan kimi qalacaq.

## Forum iştirakçıları ilə futzal üzrə yoldaşlıq görüşü keçirilib



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumunun iştirakçısı olan Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan gəncləri ilə Naxçıvan gəncləri arasında futzal üzrə yoldaşlıq görüşü keçirilib.*

Oyunun ilk hissəsi naxçıvanlı gənclərin 3:0 hesablı qələbəsi ilə başa çatıb. İkinci hissədə isə Türk Şurası gəncləri hesab arasındakı fərqi minimuma endirməyi bacarıblar. Lakin sonradan rəqibin daha üç dəfə fərqlənməsinə mane ola bilməyiblər.

Görüş Naxçıvan gənclərinin 6:3 hesablı qələbəsi ilə yekunlaşıb.

Sonda qonaqlar oyunun iştirakçıları ilə xatirə şəkli çəkdiriblər.

**✍ Ceyhun MƏMMƏDOV**



## Xor kollektivinin ilk konserti olub

Noyabrın 27-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Dövlət Uşaq Filarmoniyasının xor kollektivinin "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" devizi altında ilk konserti olub.





Naxçıvan Dövlət Uşaq Filarmoniyasının yeni yaradılan xor kollektivinin ifasında bir-birindən maraqlı əsərlər səsləndirilib. İlk konsert repertuar zənginliyi ilə seçilib.

Konsertdə tanınmış Azərbaycan bəstəkarları Emin Sabitoğlu, Müslüm Maqomayev, Musa Mirzəyev, Rəşid Məmmədovun xor üçün bəstələdikləri əsərlərlə yanaşı, rus bəstəkarlarının da musiqi əsərləri ifa edilib. "Naxçıvan marşı", "Ey Vətən", "Sənsən xilaskar", "Xoşbəxt olsun uşaqlar", "Odlar yurdu Azərbaycan", "Minnətdarlıq", "Dostluq mahnısı" xor əsərləri alqışlarla qarşılanıb. Uşaqlar üçün gözəl musiqi əsərlərinin müəllifi görkəmli rus bəstəkarı V.Şainskinin "Birlikdə addımlayaq", "Timsah Qenanın mahnısı" və Avropa bəstəkarlarından G.M.Rodriguezin "La composita"sı xor kollektivi tərəfindən uğurla ifa edilib.

Elmira Hüseynovanın xormeysterliyi, Səxavət Rəhimovun isə konsertmeysterliyi ilə keçirilən konsertdə xor kollektivini zərb musiqi alətində Ramil Cəfərov müşayiət edib.

**Əli RZAYEV**

## Əmək hüquqlarının qorunması diqqət mərkəzindədir

***Muxtar respublikada işçilərin əmək hüquqlarının qorunması və müəssisələrdə əməyin mühafizəsinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***

Cari ilin 10 ayı ərzində istehsal və tikinti sahəsində əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunmasının vəziyyəti ilə əlaqədar 77 obyektə nəzarət həyata keçirilib. Bu zaman fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 44 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb, 95 işçi isə həmin vasitələrlə yerində təmin olunub.

Bəhs olunan dövrdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə 36 tikinti obyektinə baxış keçirilib və həmin tikinti sahələrində inşaat işlərinə başlanılmasına dair müvafiq akt tərtib edilib.

Bu ilin mart ayında Naxçıvan Muxtar Respublikası "Elektron hökumət" portalında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xidmətlər bölməsinə Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi əlavə edilib. İşəgötürən və işçilərin əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemindən istifadəsinə kömək məqsədilə nazirlikdə "255" nömrəli qaynar xətt yaradılıb. On ay ərzində "255" nömrəli qaynar xəttə 126 müraciət daxil olub və müraciət edənlərin sualları qanunamüvafiq qaydada cavablandırılıb.

Ötən dövr ərzində muxtar respublika üzrə "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumat verilməsi" elektron xidməti vasitəsi ilə elektron informasiya sisteminə 833 müəssisə tərəfindən 24 min 837 əmək müqaviləsi bildirişi daxil edilib. Onlardan 16 min 318-i dövlət müəssisələrinə, 8 min 519-u isə özəl müəssisələrə aiddir.

Qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə cari ilin müvafiq dövrü ərzində 664 sahibkarlıq obyektində monitorinqlər aparılıb. Nəticədə, 498 işçi ilə yeni əmək müqaviləsi bağlanması və 1803 işçinin əmək müqaviləsində əməkhaqqının real göstərilməsi təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Səhiyyə sahəsində çalışan mühasibatlıq işçiləri təlimlərə cəlb ediliblər



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi büdcə təşkilatlarının maliyyə və mühasibatlıq işində çalışanların mövcud biliklərinin artırılması və ixtisaslarının təkmilləşdirilməsi istiqamətində işlərini uğurla davam etdirir.*

Noyabrın 27-də başlanan növbəti təlimlərə səhiyyə sahəsində çalışan maliyyə və mühasibatlıq üzrə 20 mütəxəssis cəlb olunub. "Büdcə təşkilatlarında praktik mühasibatlıq" adlı kurs 5 moduldan ibarət olmaqla Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin, eləcə də Naxçıvan Muxtar Respublika Prokurorluğunun ekspertlərinin təqdimatları üzrə mərkəzin tədris zalında keçirilir.

Kursun gündəliyinə uyğun olaraq ilk gün Maliyyə Nazirliyinin Büdcə şöbəsinin baş məsləhətçisi Ramil Hüseynov çıxış edərək "Büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması" mövzusunda təlim iştirakçılarına ətraflı məlumat verib. Təlimdə praktik məsələ və testlərin həllinə geniş yer ayrılıb, eyni zamanda bir sıra mərhələlərlə – suallara cavab, testlərin işlənməsi və sorğu-anketlərin doldurulması ilə zənginləşdirilib.

4 gün, 12 tədris saatı müddətində təşkil olunacaq təkmilləşdirici kursda növbəti günlərdə mühasibatlıq və maliyyə hesabatlarının hazırlanması, vergi uçotunun təşkili, maliyyə və mühasibatlıq işinin aparılması ilə bağlı hüquqi məsuliyyət və xəzinə əməliyyatlarının təşkili və uçotu mövzuları üzrə məlumatların əhatəli şəkildə iştirakçılara çatdırılması nəzərdə tutulub. Həmçinin tədris prosesində iştirakçılara gündəlik işlərində faydalı ola biləcək təlim materialları – slaydlar, müvafiq sahə üzrə normativ-hüquqi aktlar, sənəd formaları, təlimatlar, qaydalar və misalları özündə ehtiva edən vəsaitlər təqdim olunacaq.

Qeyd edək ki, kursun sonunda peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi mərhələsindən sonra dinləyicilərə Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim ediləcək.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 26 noyabr 2018-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3042,0 | 2864,0 | 178,0 |
| 2. | Babək rayonu | 8327,0 | 6250,0 | 2077,0 |
| 3. | Ordubad rayonu | 1317,0 | 720,0 | 597,0 |
| 4. | Culfa rayonu | 5411,0 | 4602,0 | 809,0 |
| 5. | Kəngərli rayonu | 4421,0 | 2580,0 | 1841,0 |
| 6. | Şahbuz rayonu | 932,0 | 925,0 | 7,0 |
| 7. | Sədərək rayonu | 1677,0 | 1260,0 | 417,0 |
| 8. | Naxçıvan şəhəri | 826,0 | 690,0 | 136,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25953,0** | **19891,0** | **6062,0** |

### İtmişdir

Şərur rayonu, Püsyan kənd sakini Muradov İlkin Elman oğlunun adına olan JN-3953A inventar nömrəli, 10212018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Paşayev İsmayıl Nəriman oğlunun adına Babək məhəlləsində olan ev 4, mənzil 9-a verilmiş 9697 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 861